**GÜLNAR RAMİZ**
**Filologiya üzrə fəlsəfə doktoru**
**AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu**
**H.Cavid prospekti**
**ms.gulnar_babayeva@mail.ru**

# AZƏRBAYCAN UŞAQ NƏSRİ ÇAĞDAŞ DÖVRDƏ

## (2018-ci ilin ədəbi mənzərəsi əsasında)

**Xülasə**

Hər il olduğu kimi ötən ildə də ədəbi proses uşaq ədəbiyyatına müəyyən qədər diqqət ayırmış, gənc nəslin təlim-tərbiyəsində, bir şəxsiyyət kimi formalaşmasında müstəsna rolu olan bu ədəbiyyatın inkişafına xidmət edə biləcək tədbirlər keçirilmiş, polemikalar aparılmışdır. Ancaq əfsuslar olsun ki, ədəbi tənqid uşaq ədəbiyyatına dair ardıcıl təhlil işləri aparmamış, bu ədəbiyyatın nəzəri-estetik problemlərinə, çatışmayan cəhətlərinə diqqət ayırmamışdır.

Ötən ilin uşaq ədəbiyyatına nəzər salanda bu sahədə xeyli işlər görüldüyünün şahidi olduq. Həm uşaq ədəbiyyatına aid müəyyən müzakirələr keçirildi, polemikalar aparıldı, həm də bu ədəbiyyat sahəsinin dirçəlişini, canlanmasını təmin edən layihələr reallaşdırıldı.

Uşaq ədəbiyyatı haqqında aparılan mükalimələrdə dəyərli ədəbiyyatşünaslarımızın bu sahəyə diqqət və qayğısının bir daha şahidi oluruq. Belə ki, akademik İsa Həbibbəyli "Azərbaycan" jurnalında dərc olunmuş müsahibəsində də bu ədəbiyyatın aktual problemlərinə toxunmuş, qarşıda duran məqsəd və vəzifələrin həlli istiqamətində müəyyən addımlar atıldığını və daim uşaq ədəbiyyatının diqqət mərkəzində olmasının vacibliyini vurğulamışdır. Məqaləmizdə ötən ildə yazılmış nəsr əsərlərinə nəzər salınmış, müxtəlif mətbu orqanlarında işıq üzü görmüş nəsr nümunələrinin təhlili verilmişdir.

**Açar sözlər:** uşaq ədəbiyyatı, nəsr, mövzu, təhlil, müzakirə

20180-ci ildə akademik İsa Həbibbəylinin təşəbbüsü ilə Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda filologiya elmləri doktoru, dosent Elnarə Akimovanın rəhbərlik etdiyi "Uşaq ədəbiyyatı" şöbəsinin yaradılması bu sahədə atılan addımlardan ən uğurlusu oldu. Fikrimizcə, bu şöbə gələcək fəaliyyətində gənc nəslin təlim tərbiyəsinə, gələcək inkişafına, bir şəxsiyyət kimi formalaşmasına təsir göstərən ədəbiyyatın dəyərləndirilməsi istiqamətində mühüm işlər görəcək.

"Ədəbiyyat qəzeti"nin müzakirə saatına "Cocuk və genclik edebiyatı yazarları birliği" başkanı Bican Veysəl Yıldızın dəvət olunması, çağdaş ədəbi tənqidin peşəkar simalarından olan Elnarə Akimovanın və digər qonaqların müxtəlif türk xalqlarının uşaq yazarları arasında qarşılıqlı əməkdaşlığı, Azərbaycan ilə Türkiyə Uşaq ədəbiyyatına dair maraqlı polemika aparmaları da diqqətəlayiq haldır. Bu müzakirə zamanı Azərbaycan və Türkiyə uşaq ədəbiyyatı nümunələrinin qarşılıqlı şəkildə tədqiq olunması ideyası ortaya qoyulmuş, bir çox mühüm problemlərin həllini həyata keçirmək üçün vacib məsələlərə işıq salınmışdır.

Ötən ilin may ayında Misir Ərəb Respublikasının Azərbaycandakı Səfirliyinin Mədəniyyət və Təhsil Əlaqələri Mərkəzinin və F. Köçərli adına Respublikası Uşaq Kitabxanasının birgə təşkilatçılığı ilə "Misir və Azərbaycanda uşaq ədəbiyyatı" mövzusunda keçirilən tədbir Azərbaycanda Misir uşaq ədəbiyyatını, eləcə də Misirdə azərbaycan uşaq ədəbiyyatını təbliğ etmək, uşaqlar və gənclər arasında mütaliə marağının artırılması məqsədilə təşkil olunmuşdur.

Yeri gəlmişkən, ötən il Firidun bəy Köçərli adına Respublika Uşaq Kitabxanasının təşkilatçılığı ilə bir sıra tədbirlər həyata keçirilmişdir. Bunlardan Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında "Beynəlxalq Uşaq Kitabı Gününə" həsr olunmuş tədbiri, müxtəlif uşaq ədəbiyyatı sahəsində yazıb yaradan yazarlarla görüşlərin təşkili, şeir müsabiqələrini, müxtəlif kitab təqdimatlarını misal göstərə bilərik. Bütün bu sadaladığımız tədbir və layihələr ölkəmizdə uşaq ədəbiyyatına, uşaqlara olan diqqət və qayğının göstəricisidir.

Hər il olduğu kimi 2018-ci ildə də uşaq ədəbiyyatının inkişafını artırmaq, bu sahədə keyfiyyətin çoxalmasına nail olmaq üçün müxtəlif müsabiqələr keçirilmişdir. Bu ədəbiyyatın təbliğini həyata keçirmək, problemlərini qabartmaq üçün bu kimi tədbirlərin həyata keçirilməsi tədqirəlayiq haldır. Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən keçirilən "Kiçikyaşlı məktəblilər üçün ən yaxşı nəsr, nəzm və dram əsərləri" müsabiqəsində Reyhan Yusifqızı "Nəsr əsərləri" nominasiyası üzrə II yerə layiq görülmüşdür.

Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi tərəfindən 2019-cu ilin aprel ayında elan olunan "Birpərdəli pyeslər" müsabiqəsinin qaliblərindən biri Sevinc Nuruqızıdır. Yazıçının "Al çobanyastığı ləçəkləri" pyesi III yerə layiq görülmüşdür. Pyes Qarabağ həqiqətlərini özündə əks etdirən birbərdəli əsərdir.

Bu yaxınlarda Türkiyədə keçirilən "İlesam-Akdağ-9" İlesam-Akdağ Uşaq ədəbiyyatı Roman, hekayə və nağıl-2018 (Kitab dosyası) müsabiqəsinin yekunlarına görə, 15aprel 2019-cu il tarixində birinci yeri Azərbaycandan olan uşaq yazıçısı Sevinc Nuruqızının "Melissa" adlı (İmdat Avşarın tərcüməsində) əsəri qazandı.

2018-ci ildə həm nəsr, həm poeziya nümunələri kifayət qədər yazılmış, uşaq ədəbiyyatına aid xeyli kitablar dərc olunmuşdur. Nəşr olunan nümunələrə "Ədəbiyyat qəzeti"ndə, "Azərbaycan", "Ulduz" jurnallarında, sırf uşaq jurnalları olan "Göyərçin", "Göy qurşağı", "Sehirli dünya" jurnallarının səhifələrində rast gələ bilərik.

Nəsr nüumunələri ötən ildə də üstünlük təşkil etmişdir. Reyhan Yusifqızı, Sevinc Nuruqızı, Gülzar İbrahimova, Elvira Məmmədova, Mina Rəşid, Əfsanə Laçın, Sevinc Elsevər, Sahib Fətiyev, Qəşəm Nəcəfzadə, Qaçay Köçərli, Xülya Cəfərova yazdıqları hekayə, nağılları balaca oxucuların ixtiyarına vermişlər.

Uşaqlar üçün əsərlər yaradan yazıçı uşaq dünyasına dərindən bələd olmalı, onun psixologiyasını bilməli, eyni zamanda, əraf aləmdə baş verən prosesləri, bu proseslərin uşaq aləminə təsirini araşdırmalı, üzə çıxarmalıdır. Yazıçı yazdığı hadisələrə seyrçi mövqedən yanaşmalı, təqdim etdiyi mövzunu, ideyanı elə çatdırmalıdır ki, uşaq əsəri oxuyarkən bunu anlaya bilsin. Tədqiq etdiyimiz nəsr əsərlərinin müəlliflərinin çoxu bu sadaladığımız prinsiplərə əməl etməyə çalışmış, uşaqların təfəkkürünün, dünyagörüşünün formalaşmasında, onlarda insani keyfiyyətlərin, dostluğun, yoldaşlığın yaranmasında müəyyən rolu ola biləcək əsərlər yazmışlar. Reyhan Yusifqızının "Ad günü", "Arximed niyə gülürdü" adlı hekayələri belələrindəndir. "Ad günü" hekayəsinin qəhrəmanı Zeynəb öz doğum günündə sinif yoldaşlarını qonaq çağırır, lakin o öz yaşına uyğun olmayan biçimdə onların qarşısına çıxır. Zeynəbi bu vəziyyətdə görən uşaqlar ona gülür. Bu zaman bərk dilxor olan Zeynəb nə edəcəyini bilmir. Ancaq Arzu adında sinif yoldaşı Zeynəbə bu çıxılmaz vəziyyətdə kömək edir, uşaqları əyləndirmək üçün bir oyun qurduqlarını söyləyir. Müəllifin bu hekayəsi qısa olsa da əslində uşaqları tərbiyələndirmək baxımından maraqlı süjet xətti üzərində qurulub. Burada qloballaşan dünyamızda, elm, texnika əsrində həm uşaqların öz yaşlarından böyük görünmək istəyi tənqid olunur, həm də onlara dostluğun önəmi, sevgi, mərhəmət hissi aşılanır.

Reyhan Yusifqızının həm bu hekayələrində, həm də digər əsərlərində uşaqlara əxlaqi-tərbiyəvi ideyalar aşılansa da, müəllif bunu tövsiyə şəklində etmir. Əksinə hadisələrdən kənar mövqedə çıxış edir və müəllif müdaxiləsi hiss olunmur.

Uşaqların mənəvi dünyasının, xəyal aləminin zənginləşməsinə səbəb ola biləcək əsərlər arasında Sevinc Nuruqızının "Meşədə yeni il" hekayəsini də göstərmək olar. Burada yeni ildə uşaqların bəzədiyi küknar ağacının meşədə qar dənələri, meşə heyvanları tərəfindən bəzədilməsindən bəhs olunur. Yazıçı Balaca Küknarın qar dənələri ilə ilk tanışlığını çox dolğun, canlı təsvir edir. Sevinc Nuruqızı kiçikyaşlı uşaqlar üçün müxtəlif şəkilli kitabçalar da hazırlamışdı. Ayrı-ayrı hərflərin öyrənilməsi məqsədilə nəzərdə tutulmuş bu kitabçalarda hər hərfə uyğun yazılar dərc olunmuşdur. Məsələn, "B" hərfini öyrənək" adlı kitabında "B" hərfini uşaqlara öyrətmək məqsədilə şair həm bu hərfin üstünlük təşkil etdiyi hekayələrə, şeirlərə yer verir ( "Bayrağa bax", "Balaca balıq və böyük balina"), həm də uşaqlarda məntiqi təfəkkürün inkişaf etdirilməsini təmin edən, onların dil qabiliyyətini formalaşdıran tapmaca və yanıltmaclara burada rast gəlmək mümkündü. Fikrimizcə, bu kitabçaların nəşri kiçikyaşlı uşaqların məktəbə hazırıq dövründə hərflərin mənimsənilməsində yaxın köməkçi ola bilər.

Uşaq ədəbiyyatı nümunələri içərisində əxlaqi-tərbiyəvi məzmunda yazılmış əsərlər həmişə seçilib. Bunlara Elvira Məmmədovanın "Qanadlı dostlar", Zahid Xəlilin "Oğurluq edən dəvənin axırı", Əfsanə Laçının "Təmizlik polisləri" əsərlərini nümunə göstərə bilərik. Bu əsərlərdə uşağı pis vərdişlərdən uzaq tutmağa çalışan, onlara müsbət keyfiyyətləri aşılayan bir meyar görürük. Qeyd etdiyimiz müəlliflər əsərlərində qoyulan problemin həllinə müəyyən qədər nail olmuşlar. Bu əsərlərin dili sadədir, müəllifin ideyası uşaqlara nağıl formatında çatdırılır. Ona görə də uşaq yorulmur, hadisələrin axarlı ona maraqlı gəlir. "Qanadlı dostlar" əsərində ana qartal bala qartala qanadlı dostlar tapmağı tövsiyə edir. Bir çox yerlər gəzən qartal almanın yarpaqlarını, gəminin yelkənlərini qanada bənzətdiyindən onları özünə dost hesab edir. Müəllif qəhrəmanın dilindən kitabları bütün insanların qanadı adlandırmaqla uşaqları elmə, biliyə həvəsləndirir, onlarda kitab oxumağa, gələcəkdə savadlı, bilikli adam olmağa maraq yaradır. "Təmizlik polisləri" adlı silsilə nağıllarında diş polisi Tuz, dırnaq polisi Nek, saç polisi Heyə kimi obrazların işlədilməsi, uşaqlarda gigiyena qaydalarına əməl etməyin vacibliyini vurğulayan süjet xəttinin qurulması mühüm tərbiyəvi əhəmiyyət daşıyır. "Oğruluq edən dəvənin axırı" hekayəsində yazıçı həm dosta xəyanətin mənfi tərəflərini izah edir, həm də əsərdə qurduğu süjet xətti vasitəsilə dəvənin qozbel olmasının səbəblərini uşaqlara nəql edir. Bu hekayə də əxlaqi-tərbiyəvi məzmunu ilə diqqət çəkir.

Vətən, Qarabağ müharibəsi mövzusu bu ilin ədəbiyyatının aktual mövzularındandır. Bunu həm nəsr, həm nəzm nümunələrində görmək mümkündür. Qəşəm Nəcəfzadənin "26 Fevral küçəsi" hekayəsində müəllif həm uşaqlara Qarabağın qan yaddaşı olan Xocalı faciəsini unutmamağı, daim yaddaşlarda əbədi saxlamağı bir mesaj kimi ötürür. Həm də onlarda Vətənə, işğal olunmuş torpaqlarmıza qarşı bir məhəbbət duyğusu aşılayır.

Uşaqlarda heyvanlara qarşı sevgi, diqqət, mərhəmət hisslərinin formalaşmasını təlqin edən əsərlər də yazılmışdır. Bu əsərlərin qələmə alınması müsbət haldır. Çünki məhz belə əsərlər onlarda ətraf mühitin canlı varlıqlarına qarşı qayğıkeş yanaşmalarına şərait yaradacaq. Qəşəm Nəcəfzadənin "26 Fevral küçəsi", Qəşəm İsabəylinin "Ayı və ovçular" əsərlərində bu məsələlərə toxunulmuşdur.

"26 Fevral küçəsi" əsərində uşaqların heyvanlara qarşı münasibəti yalnız heyvanlara qarşı deyil, bütün canlı və cansız varlıqlara duyğu ilə yanaşmanın vacibliyini vurğulayır ki, uşaqların gələcəkdə sosial mühitdə ətraf aləmə qarşı qayğı ilə yanaşmasında mühüm rol oynaya bilər: "Küçəmizdə bir pişik xəstələnib, divarın dibində büzüşüb miyoldayır. Aydan tez gedib evdən kolbasa-çörək gətirdi. Səliqə ilə doğrayıb pişiyin qabağına qoydu. Elnarə qaçıb qalın bir yun örtük gətirib pişiyi bükdü. Uşaqların hamısı balaca ağ pişiyin qulluğunda idi. O vaxtdan uşaqlar qərara gəldilər ki, küçədə nə qədər pişik varsa, onları yemləsinlər. Uşaqlar pişikləri ac qoymurdular. Hər gün növbə ilə onları yedirirdilər. Üşüyəndə növbə ilə evə aparırdılar" [2, s.133].

Q.İsabəylinin “Ayı və ovçular” hekayəsində təsvir olunan Ayının vəziyyəti uşaqlara heyvanlara qarşı daha diqqətli olmağı, onlara qarşı biganə qalmamağı özündə təlqin edir. Ovçuları görən Ayı onu gülləyə tutduqlarından, tələyə saldıqlarından onlara qarşı aqressiv olur. Heyvan olsa belə onun keçirdiyi hisslər, duyğular var və bu yazıçı tərəfindən uşaqlara məharətlə çatdırılıb.

Araşdırmamız zamanı “Ulduz” jurnalında da uşaqlar üçün nəzərdə tutulmuş nəsr əsərlərinə rast gəldik. Reyhan Yusifqızının “Zümrüd”, “İki qardaş”, “Mister Bebbic”, “Büllur vazada yasəmən”, “Mən və nənəm” adlı hekayələrini nümunə göstərə bilərik. “Mister Bebbic” hekayəsinin qəhrəmanı Fərid öz otağında qəribə geyimli yaşlı bir kişi ilə rastlaşır. Kişi özünü kompüterin yaradıcısı kimi təqdim edir. O, bu əşyanı yaratdığından peşiman olduğunu söyləyir. Çünki, “onlar artıq kitab oxumur, heç nə öyrənmir, heç nə düşünmürlər. Kompüterdən yalnız əylənmək üçün istifadə edirlər” [7, s.54]. Bu sözlərlə müəllif əslində acı olan reallıqları oxucularına çatdırır. Çağdaş zəmanəmizin qlobal problemi olan internet, ondan asılılıq uşaqların az mütailə eləməsinə, onların kitabdan uzaq düşməsinə şərait yaratmışdır.

Əfsanə Laçının “Ulduz” jurnalında nəşr olunan “Nağıl axşamı” adlı nağıllar toplusunda müxtəlif nağıllar dərc olunmuşdur. Burada “Hərflərdən şikayət”, “Noğul”, “Göy qurşağı rəngbərəngdir”, “Günəş nənə”, “Çiçək”, “Şimşək bala”, “Polis”, “Torpaq baba”, “Rəssam” və s. nağıllar toplanmışdır. Əfsanə Laçın nağıllarında obrazlara təbiət varlıqlarının adını verməsi uşaqlarda ətraf mühiti sevməyə maraq oyatmaq baxımından tədqirəlayiqdi. Lakin bununla belə, kiçikyaşlı uşaqlar üçün nəzərdə tutulmuş bu nağıllarda xoşagəlməyən ifadələr də var. Belə ki, “Ulduz bacı” nağılında əsərin qəhrəmanı Ulduzun “sevgilim uzaqdadı, onun yolunu gözləyirəm, onun yerə enəcəyi xəyalı ilə yaşayıram” kimi sözləri işlətməsi kiçik yaş qrupuna daxil olan uşaqlar üçün məqsədəuyğun deyil.

Orxan Adıgözəlin “Əngəlsiz arzular” adlı kitabının uşaqlar üçün nəzərdə tutulmuş digər kitablardan üstün cəhəti ondan ibarətdir ki, burada fiziki imkanı məhdud olan uşaqların cəmiyyətə adaptasiyası problemi əks olunub. Bu əsər uşaqlara motivasiya məqsədi ilə yazılıb, onlarda özünəinam, özgüvən hisslərinin formalaşmasında mühüm rol oynayır. Kiçik qəza nəticəsində ayağında problemlər yaranan Nihat həyatdan küsmür, müxtəlif reablitasiya və bərpa proseslərini keçərək əvvəlki həyatına qayıtmağa müvəffəq olur.

Nərmin Mahmudovanın “Şərqin ilk qadın təyyarəçisi-Leyla Məmmədbəyova” adlı kitabı Azərbaycanın və hətta bütün Şərqin ilk qadın təyyarəçisi olan Leyla Məmmədbəyova haqqında hazırlanmışdır. Lakin kitab Leyla xanım haqqında olsa da, müəllif bu kitabı uşaqların dilinə uyğun sadə formada yazmışdır. Yəni burda həm uşaqlar məlumatlandırılır, həm də həmin məlumat onlara daha asan yolla çatdırılır.

Demək olar bütün yaradıcılığını uşaqlara həsr etmiş Qəşəm İsabəylinin ötən il “Ədəbiyyat” qəzetində müxtəlif hekayələri nəşr olunmuşdur. “Aauu”, “Ayı və ovçular”, “Şəm-şəmlə nökərin əhvalatı” bunlara nümunədir. Ötən il 70 illiyi qeyd olunan Q.İsabəylinin yubileyi münasibətilə Zahid Xəlil “Ədəbiyyat” qəzetinin 18 avqust buraxılışında ona “Uşaqlığını yazan şair” adlı bir məqalə həsr etmişdir. Bu məqalədə şairin yaradıcılığına ümumi nəzər salınmış, müəyyən şeirləri təhlil edilmişdir. Zahid Xəlilin bir uşaq ədəbiyyatının nümayəndəsi olaraq həmkarına gözəl sözlər yazması tədqirəlayiq haldır. Çünki eyni növdə, janrda yazan bu yazıçıların mühakiməsi, müzakirəsi uşaq ədəbiyyatının çatışmayan cəhətlərinin aradan götürülməsi üçün mühüm vasitədir.

Ötən ilin uşaq ədəbi nümunələri içərisində fantastik üslubda yazılan, uşaqların təxəyyül gücünü formalaşdıran əsərlər də geniş yayılmışdır. Çağdaş dövrün yazarlarından olan Sevinc Elsevərin “Şeytan çarxı” əsərində hadisələr yeddi uşağın karuselə minərək müəmmalı şəkildə yoxa çıxması mövzusu əsasında cərəyan edir. Bütün doğmaları onları axtarır. Bu uşaqlar isə

qeyri-adi bir yerdə gözlərini açırlar. Sehirli xalça üstündə uçan uşaqlar xalça üzərində müxtəlif ölkələrə səyahət edirlər.

Sehirli xalça üstündə uçan uşaqlar müxtəlif ölkələrin üstündən uçurlar, harda yerə enmək barədə düşünürlər. "İngilis Krallığını" seçən uşaqlar İngiltərəni gəzirlər, Spartaya səyahət edirlər. Gülər və Kərim uşaqlara məktəbdə öyrəndikləri məlumatları çatdırırlar: "1829-cu ildə, Cənubi Qafqaz məktəbləri haqqında nizamnamə qəbul ediləndən bir il sonra Şimali Azərbaycanda qəza məktəbi yaradıldı. İlk məktəb Şuşada yaradılmışdı, cəmi iki il sonra Nuxada, Bakıda da belə məktəblər açıldı. Daha sonralar ilk dünyəvi müsəlman məktəbləri yaradılmağa başlandı. Dünyəvi müsəlman məktəbinin ilk layihəçilərindən biri Abbasqulu ağa Bakıxanov idi. Təəssüf ki, onun layihəsini qəbul etməmişdilər" [4, 65].

Xalça Şuşaya da enir. Müəllifin işğal olunmuş torpaqlarımızı da unutmaması, diqqət mərkəzində saxlaması sevindirici haldır. Çünki bu tariximizin qan yaddaşını uşaqlara çatdırır, onlarda Vətənə, doğma yurda bağlılıq hissini formalaşdırır.

Əsərin kompozisiyası da maraqlı quruluşa malikdir. Burada təsvir olunan zaman və məkan anlayışı fərqlidir. Müəllif uşaqları həm keçmişə, həm gələcəyə aparır, fərqli məkanlarda təsvir edir. Fantastik elementlərlə zəngin olan bu əsər uşaq ədəbiyyatı nümunələri içərisində qeyd etdiyimiz novatorluq xüsusiyyətləri ilə seçilir.

Zahid Xəlilin "Üçbucaq ölkənin adamları" hekayəsində müəllif uşaqları qeyri-adi dünyaya səyahətə aparır, "Kralın kreslosu" fantastik hekayəsində isə şöhrətpərəstlik, təkəbbürlük tənqid olunur.

Gənc yazar Xülya Cəfərova 2018-ci ildə uşaqlar üçün "Külək: Yel Kürəsinin Şahzadəsi" adlı roman yazıb nəşr etdirmişdir. Əsər Azərbaycan ədəbiyyatında çox az sayda nümunə olan fentezi janrındadır. Əsərin protaqonisti Külək Azərbaycan ədəbiyyatında ilk milli superqəhrəman hesab olunur. Külək, İşıq, Umay, Erlik, Kayra xan, Simurq quşu, Yağmur, Azər baba və digər personajların timsalında xalqımızın zəngin tarixi, milli mənəvi dəyərli və adət-ənənələri maraqlı və oxunaqlı bir üslub vasitəsilə oxucuya ötürülür.

Zahid Xəlilin 2018-ci ildə iki kitabı dərc olunmuşdur. Bunlardan biri "Kralın kreslosu" adlanır. Burada müxtəlif məzmunlu uşaq hekayələri toplanmışdır. Bunlardan "Yumru yumaq", "Oxuyan koğuş", "Papaq", "Üzgüçü Tural", "Qırmızıpapaq və canavar", "Günəşin dənizdə qalan saçları", "Turalın atı", "İki nar" və başqalarının adlarını çəkmək olar.

Ədəbiyyatımızda həmişə folklor motivlərinin, nağıl, tapmaca janrında əsərlərin yazılması aktual olmuşdur. Zahid Xəlil "Atalar sözü şəhəri" hekayəsində şəhərin obrazını yaradarkən sakinlərin dilindən fərqli atalar sözü işlətməklə həm bu folklor nümunələrimizi uşaqlara təlqin edir, həm də uşaqlar bu atalar sözlərini hekayə oxuyarkən daha asan üsulla mənimsəmiş olur: "Yüz dəfə ölçülüb bir dəfə biçildiyinə görə bu şəhərin küçələri ox kimi dümdüzdü. Evlərin həyətlərindən adamın burnuna təzə bişmiş çörək ətri gəlirdi. Burada çörəyi doğrudan da, gözəl bişirirdilər. Axı, onlar çörəyi çörəkçiyə verirlər. Buradakı adamların cavanları da, yaşlısı da demək olar ki, eyni ağıldadı. Hamı bir-birinə diqqətlə qulaq asır və bir sözü qəti yaddan çıxarmırlar: ağıl yaşda deyil, başdadı" [8, s. 274].

Ümumiyyətlə, apardığımız tədqiqat zamanı müəyyən etdik ki, uşaq ədəbiyyatı, xüsusilə uşaq nəsri istədiyimiz səviyyədə inkişaf etməsə də, bu sahəyə tədiqiqatçılar kifayət qədər önəm verməsələr də, bu ədəbiyyatın inkişafına maraqlı olan, daim diqqətdə saxlayan ədəbiyyat nümayəndələri vardır və bu qüvvələr bu sahənin istənilən səviyyəyə gəlib çatmasına nail olacaqlar.

## Ədəbiyyat siyahısı:


1) Məmmədova Elvira. Qanadlı dostlar. "Azərbaycan" jurnalı, 2018, № 12, s.127.
2) Nəcəfzadə Qəşəm. 26 Fevral küçəsi. "Azərbaycan" jurnalı, 2018, №12, s.133
3) Nərmin Mahmudova. Şərqin ilk qadın təyyarəçisi-Leyla Məmmədbəyova. Bakı:TEAS Press nəşriyyat evi, 2018
4) Nuruqızı Sevinc . "B" hərfini öyrənək". Bakı: Təhsil nəşriyyatı, 2018.
5) Orxan Adıgözəl. Əngəlsiz arzular. Bakı: TEAS Press nəşriyyat evi, 2018
6) Sevin Elsevər.Şeytan çarxı.Bakı: "Kitabsevərlər", 2018
7) Yusifqızı Reyhan. Mister Bebbic. "Ulduz" jurnalı, 2018, № 9, s.54.
8) Zahid Xəlil. Kralın kreslosu. Bakı: "3 alma", 2018, s. 274


**Г.Рамиз**

## Азербайджанское детская проза в современном периоде (по литературному взгляду 2018 года)

### Резюме


Как и каждый год, в прошлом году литературный процесс придавал большое значение детской литературе, были организованы мероприятия и были проведены полемики, которые могут способствовать развитию этой литературы, которая играет исключительную роль в образовании, обучении и воспитании молодого поколения. Но к сожалению, литературная критика не провела серийный анализ детской литературы и не обратила внимания на теоретико-эстетические проблемы и недостатки этой литературы.

Когда мы смотрим на прошлогоднюю детскую литературу, мы становимся свидетелями многих исследований в этой области. Были организованы некоторые дискуссии и полемики о детской литературе, и в то же время были проведены проекты по возрождению и развитию этой отрасли литературы.

В обсуждениях о детской литературе мы становимся свидетелями внимания и интереса наших ценных литературных критиков. А именно, академик Иса Хабиббейли затронул актуальные проблемы этой литературы в интервью, опубликованном в журнале «Азербайджан», и подчеркнул, что были предприняты определенные шаги в реализации целей и задач, и что детская литература должна постоянно оставаться в центре внимания. В статье были рассмотрены некоторые прозаические произведения, написанные в прошлом году, и проанализированы примеры прозаических произведений, опубликованные в разных издательствах.


**Ключевые слова:** детская литература, проза, тема, анализ, дискуссия

G.Ramiz

**Azerbaijan child's prose in the contemporary period**
**(based on the literary view of 2018)**

**Summary**

Each year, as in the past year, literary process has paid a lot of attention to children's literature, events that can contribute to the development of this literature, which plays an exceptional role in the education of the younger generation, as an individual, have been conducted polemics. However, unfortunately, literary criticism did not carry out consistent analysis of children's literature, it did not pay attention to the theoretical-aesthetic problems of the literature.

When we look at children's literature last year, we have seen a lot of things done in this area. There were some discussions on child literature, polemics were conducted, and projects that provided revival and revival of this literature area.

In our award-winning children's literature, we again witness the care and attention of our valuable literary critics. Thus, academician Isa Habibbeyli, in an interview published in "Azerbaijan" magazine, stressed the importance of addressing the current problems of the literature, taking concrete steps towards solving the goals and tasks faced and the necessity of constantly being in the focus of child literature. Our article reviews the prose writings written in last year, and analyzes of prose publications in different press agencies.

**Key words:** child' literature, prose, theme, analysis, discussion

Redaksiyaya daxil olma tarixi:12.06.2019
Çapa qəbul olunma tarixi: 13.07.2019
Filologiya elmləri doktoru, dosent Elnarə Akimova tərəfindən çapa tövsiyə olunmuşdur.